Gəncə Dövlət Universiteti

Rektor: Y.Ə.Yusibov
GDU Elmi Şurasının 04 oktyabr 2023-cü il tarixli iclasında (Pr.№ 01) təsdiqlənmişdir.

# KEYFİYYƏTİN TƏMİNATI MƏRKƏZİ ƏMƏKDAŞLARININ VƏZİFƏ ÖHDƏLİKLƏRİ

Gəncə - 2023

## 1. Mərkəz müdirinin vəzifə öhdəlikləri:

- Mərkəzin fəaliyyətini təşkil edir;
- Universitetdə keyfiyyət mədəniyyətinin formalaşdırılmasına nail olmağa çalışır;
- Universitetdə keyfiyyətin yaxşılaşdırılması üçün stimullaşdırma mexanizmlərinin hazırlanmasına rəhbərlik edir;
- Universitetin struktur və bölmələrində, fakültə və kafedralarında keyfiyyətin təminatı məsələlərinin təşkilinə rəhbərlik edir;
- Səlahiyyətləri çərçivəsində mərkəzin tabeliyində olan şöbələrin fəaliyyətinə dair icrası məcburi olan göstərişlər verir və onların icrasına nəzarət edir;
- Struktur bölmələri, professor-müəllim heyəti və təhsilalanlar arasında qarşılıqlı sağlam münasibətin qurulmasına dəstək verir;
- Akademik keyfiyyət, özünüqiymətləndirmə və akkreditasiya sahəsində seminarlar, görüşlər, təqdimatlar təşkil edir;
- Təhsil proqramlarının keyfiyyətinə, təhsilverənlərin fəaliyyətinin qiymətləndirilməsinə və təhsilalanların bilik və bacarıqlarının səviyyəsinə nəzarəti həyata keçirir;
- Təhsil proqramları, tədris resursları, təlim metodikaları və tədris-metodik təminatın hazırlanması, təsdiq olunması və dövri olaraq monitorinqi üçün prosedurlar və qaydaların hazırlanmasına və onun düzgün icrasına nəzarət edir;
- Professor-müəllim heyəti tərəfindən tədris olunan fənnlərin proqramları və metodik materiallarının keyfiyyəti ilə bağlı yoxlamaların təşkilinə nəzarət edir;
- Təlim və tədrisin keyfiyyətinin yüksəldilməsinə nail olmaq üçün tələbələrlə görüşərək onlarla sorğuların keçirilməsini təşkil edir;
- Universitetin bütün fəaliyyətləri haqqında dəqiq, düzgün məlumatların hazırlanmasına, bu məlumatların ictimaiyyət üçün açıqlığının təmin edilməsinə və yayılmasına nəzarət edir;
- Dövri olaraq özünüqiymətləndirmənin aparılmasını və keyfiyyət təminatı standartlarına əməl edilməsinə nəzarət edir;

- Universitetdə keyfiyyətin monitorinqi (xarici və daxili) və qiymətləndirmə mexanizmlərinin yaradılmasına koordinatorluq edir;
- Keyfiyyətin yüksəldilməsinə dair təkliflər verir;
- Universitet rektorunun tapşırığı ilə dövlət orqanlarında və təşkilatlarda keçirilən tədbirlərdə universiteti və mərkəzi təmsil edir;
- Universitet rektorunun razılığı ilə öz səlahiyyətləri daxilində müəyyən edilmiş qaydada beynəlxalq əməkdaşlığa dair danışıqlar aparır;
- Beynəlxalq tədbirlərdə iştirak edir;
- Mərkəzin fəaliyyət istiqamətində müvafiq işlərin təşkili vəziyyətini öyrənir və təhlil edir;
- Mərkəzin fəaliyyəti barədə Universitet rektoruna mütəmadi olaraq hesabatlar və məlumatlar verir;
- Mərkəz üzrə Universitetin Elmi Şurasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini rektora təqdim edir;
- Mərkəzin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Universitet rektoruna təqdimatlar verir;
- Universitet, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və digər aidiyyatı rəhbər orqanlar tərəfindən tövsiyyələrə əməl etmək üçün keyfiyyət təminatı və inkişaf proseslərinin vaxtaşırı nəzərdən keçirilməsini və yenilənməsini təmin edir;
- Mərkəzin hazırladığı bütün sənədlərin elmiliyi, aktuallığı, doğruluğu və keyfiyyəti üçün məsuliyyət daşıyır;
- Tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır;
- Tabeliyində olan əməkdaşların fəaliyyətini əlaqələndirir;
- Tabeliyində olan əməkdaşların əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;
- Öz işçilərinin ixtisasının artırılmasını təşkil etmək və onları müntəzəm olaraq müvafiq kurslara göndərmək və attestasiyasını keçirir;
- Əməkdaşların əmək və icra intizamının təmin edilməsi üçün məsuliyyət daşıyır.

## 2. Əməkdaşların vəzifə öhdəlikləri:

- Tapşırılan sahə üzrə mərkəzin iş planının, lazımi materialların toplanmasında, sənədlərin hazırlanmasında, nəzərdə tutulan işlərin tələb olunan səviyyədə həyata keçirilməsində yaxından iştirak edir;
- Mərkəzin fəaliyyət istiqaməti üzrə işin təşkili vəziyyətini öyrənir və onu təhlil edir;
- Tədrisin səmərəliliyinin yüksəldilməsinə kömək göstərir və müvafiq təkliflərin verilməsində iştirak edir;
- Tapşırılan sahə üzrə vəziyyəti öyrənib, ümumiləşdirilməsini təşkil edir;
- İşlərə aid arayış və sənədlərin Universitetin Elmi Şurasında müzakirəyə çıxarılması üçün mərkəzin müdirinə kömək edir;
- Təlim məşğələlərinin və təcrübələrin keyfiyyəti, tədris planı və proqramlarının yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirilməsində iştirak edir;
- Struktur və bölmələrə, şöbə və kafedralara keyfiyyət təminatı və inkişafına dair məsələlərdə məsləhət verir;
- Keyfiyyət təminatı və inkişafı siyasətlərini, strategiyalarını və sistemlərini tərtib etmədə iştirak edir və həyata keçirməyə kömək edir;
- Fərqli daxili və xarici auditoriyalar üçün keyfiyyət məsələlərinə dair hesabatlar, təhlillər və təqdimatlar hazırlayır;
- Universitet əməkdaşlarına və xarici tərəfdaş təşkilatlara keyfiyyət məsələləri mövzularında təlim verir;
- Daxili və xarici keyfiyyət təminatı qaydalarının hazırlanmasında və inkişaf etdirilməsində qurumların iştirakını təşviq edir;
- Universitetdə mövcud olan bütün qurumların keyfiyyət təminatı və standartları ilə bağlı öhdəliklərə əməl edilməsinə nəzarət edir;
- Dövri daxili və xarici monitorinqə dair hesabatların hazırlanmasında iştirak edir;
- Universitetdə mövcud olan bütün qurumların daxili keyfiyyət təminatı gündəliyi haqqında məlumatlı olmasını təmin edir;

- Əməkdaşlara və tələbələrə daxili və xarici monitorinqlərin nəticələri barədə tövsiyyələr verir və müvafiq qurum daxili iclaslarda müzakirə edilməsi üçün şərait yaradır;
- Monitorinq nəticələrinin müvafiq maraqlı tərəflər arasında bölüşülməsini təmin edir;
- Monitorinq nəticələri və görülən işlər haqqında hesabatlar hazırlayır.

**3. Bilməlidirlər:**

- "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarını;
- Elm və təhsil sahələrinə aid Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını;
- "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nı;
- "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"ni;
- "Ömür boyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsi"ni;
- "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"ı;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin aidiyyəti qərar və sərəncamlarını;
- Azərbaycan Respublikasının təhsil sahəsi üzrə mərkəzi icra hakimiyyəti orqanının aidiyyəti qərar, sərəncam və əmrlərini;
- Ali məktəb pedaqogikasını və psixologiyasını;
- Tədris planlarının və proqramlarının tərtibini;
- Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydalarını.